**1918**-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə təmsil edən Dövlət bayrağı və Dövlət gerbi ilə bərabər, Dövlət himninin yaradılması və qəbul edilməsi də günün ən vacib tələblərinə çevrilmişdi. Hər bir Azərbaycan vətəndaşı dövləti, xalqı, ümummilli lideri, inkişafımızın dinamikası haqqında bilik və məlumatlara sahib olmalıdır. Müstəqilliyimizin atributlarından biri kimi ölkənin himni bu sırada mühüm yer tutur. Məlumdur ki, hələ kiçik yaşlarından vətəndaşlarımız ailədə, təhsil aldıqları tədris müəssisəsində Azərbaycan Respublikasının Dövlət Himnini öyrənir və oxuyurlar. Ötən əsrin 90-cı illərinin sonlarından Dövlət Himninin məktəblərdə dərs başlamazdan əvvəl bütün şagirdlər tərəfindən oxunması ənənəsi bu gün də böyük şərəf və fəxarət hissi ilə davam etdirilir.

Azərbaycanın gözəl himni var. Sevindiricidir ki, bu himn hələ 1919-cu ildə yazılıbdır. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnin sözlərini böyük şairimiz Əhməd Cavad yazıbdır. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir.

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

# XALQIMIZIN İSTİQLALİYYƏTİNİN, MÜBARİZƏ VƏ YARATMAQ EŞQİNİN İFADƏSİ

***1919-cu ildə bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "İstiqlal marşı"nın Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilməsindən 30 il ötür***

"Himn" yunanca "təntənəli nəğmə" deməkdir və müxtəlif mərasimlər üçün nəzərdə tutulur. Siyasi təbliğatda mühüm vasitə olmaqla, müəyyən mütəşəkkillik və səfərbərlik rolu da oynayır. Himnin ifa olunması əsasən bayram şənlikləri, siyasi nümayişlər, rəsmi dövlət qəbulları, hərbi paradlarla bağlıdır.

Azərbaycan himninin hər bir kəs tərəfindən öyrənilib oxunması bizim vətəndaslıq borcumuz, vəzifəmizdir. Ulu öndər Heydər Əliyev hələ vaxtilə bu məsələyə ümumcəmiyyət məsələsi kimi baxır, dəyərləndirirdi. Ümummilli liderin himnimiz haqqında fikirləri ideya-mənəvi dəyərlərimizlə bağlı baxışlarının tərkib hissəsi kimi dəyərləndirilməlidir. Heydər Əliyev böyük vətənpərvərlik duyğusu, müdrik şəxsiyyət, dahi siyasətçi - dövlət adamı kimi himnimizə çox yüksək qiymət verərək söyləyirdi: "Mən xarici ölkələrə səfər edərkən hər yerdə iki himn çalınır - Azərbaycanın himni, bir də getdiyimiz ölkənin himni. Hər ölkənin himni hər ölkənin özünə görə əzizdir. Öz xalqının musiqisini, mənəvi xüsusiyyətlərini əks etdirir. Bu, təbiidir. Ancaq mən hər yerdə müqayisə edib görürəm ki, bizim himnin müəllifləri bu himni nə qədər böyük məharətlə yaradıblar. Hər dəfə xarici ölkələrdə himni dinləyərkən mən yenidən iftixar hissi duyuram. Ancaq himni dinləmək yox, onu oxumaq lazımdır... Himn çalınan vaxt insanlar bu himnin sözlərini oxumalıdırlar. Bunun əhəmiyyəti var. Bir var ki, onu dinləyəsən, bir də var ki, o mahnının, musiqinin sədaları altında o sözləri tələffüz edəsən, oxuyasan. Bunlar da insanlarda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə kömək edir. Eyni zamanda, bu, ona görə vacibdir ki, himnimizə xüsusi hörmətin təzahürüdür...".

Göründüyü kimi, ulu öndərin dövlət himnimizin yaranma tarixi, məna dərinliyi, gözəl musiqisi, onun dövlət atributlarından biri kimi öyrənilməsi və iftixar hissi ilə oxunması haqqında fikirləri insanda vətəndaşlıq qüruru doğurmaya bilməz. Biz, həqiqətən də, bu gözəl himnimizlə fəxr edə, öyünə bilərik.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyov tərəfindən iki marş yazılmışdır. Onların hər ikisi ilk dəfə 1966-cı ildə türk musiqişünası Etem Üngörükün Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında çap olunmuşdur. Bu əsərlərin əlyazmasını bəstəkarın qardaşı Ceyhun bəy Hacıbəyov vaxtilə Türkiyəyə çatdırmışdır. Bunlardan biri "Azərbaycan milli marşı" adlanır. Həmin əsər 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan etdiyi müsabiqədə birinci mükafata layiq görülmüşdür. Marşın musiqisi Üzeyir bəy Hacıbəyova məxsusdur ki, bunu təsdiqləyən sənəd, yəni müəllifin əlyazması onun adını daşıyan ev-muzeyində saxlanılır. İkinci marş - "Azərbaycan marşı" haqqında türk naşiri belə bir məlumat vermişdir: "Azərbaycan istiqlalı qeyb etməzdən öncəki illərdə, yəni 28 aprel 1920-ci ilə qədər, bu marş hər səhər hərbi məktəblərdə dərs başlanmazdan əvvəl oxunardı".

Geniş ictimaiyyətin rəğbətini qazanmış indiki Dövlət himni haqqında ulu öndər Heydər Əliyev iftixarla demişdir: "Böyük Üzeyir Hacıbəyov 1919-cu ildə, bu gün hər dəfə sevinclə dinlədiyimiz "İstiqlal marşı"nı - müstəqil Azərbaycan Respublikasının Dövlət Himnini yaratmışdır. Üzeyir Hacıbəyov o vaxt dərk edirdi, anlayırdı ki, bu, xalqa lazımdır. Bu gün bu fürsətdən istifadə edərək demək istəyirəm ki, o dövrün çətinliklərinə, Üzeyir Hacıbəyovun da nisbətən gənc olmasına baxmayaraq, o, çox gözəl, əzəmətli Dövlət himni yaratmışdır".

Azərbaycan Respublikasının dövlət atributları, onların bərpası və yenidən yaradılması işində ulu öndərin xidmətləri əvəzsizdir. Bildiyimiz kimi, bayraq, gerb, himn kimi atributlar milli dövlətçiliyin istiqlaliyyətini, varlığını, xalqın ən ali amallarını, ideallarını yığcam, obrazlı ifadə edən mühüm amillərdir.

Ulu öndərin Azərbaycan bayrağı haqqında dediyi bu sözlər vətəndaşlarımızın, kiçik məktəbyaşlı uşaqların da ruhuna təsir edən, onları qanadlandıran, qürur və iftixar hissi doğuran fikirlərdir: "...Məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyi hər bir cocuqda, yeniyetmədə daxildən olmalıdır. Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. ...Biz öz müstəqil dövlətimizdəyik, ölkəmizdəyik. Hansı ölkəyə gediriksə-gedək, Azərbaycanın bayrağının o ölkədə asılması həm Azərbaycanın orada təmsil olunduğunu göstərir, həm də bizim ölkəmizi tanıdır, eyni zamanda, bizdə iftixar hissi oyadır".

XX yüzilliyin sonu - XXI yüzilliyin əvvəlində milli dövlətçiliyimiz yenidən dirçəlmiş, müstəqil Azərbaycan Respublikası dünya dövlətləri arasında layiqli yer tutmuşdur. Müqəddəs bayrağımız, şanlı gerbimiz, milli himnimiz siyasi, ictimai və mədəni həyatımızın bütün sahələrində geniş yayılmış, Konstitusiya qanununun tələblərinə uyğun olaraq respublikamızın bütün ərazisində və beynəlxalq miqyasda bərqərar olmuşdur. Dövlətçiliyimizdə mövcud olan varislik ənənələrinə sadiq olan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə milli istiqlaliyyətimiz kimi Vətənin dövlət rəmzləri də ürəkləri fərəhləndirir, arzu və əməllərimizi qanadlandırır. Bayrağımızın həyat nəfəsli rəngləri ilə işğaldan azad olunmuş ərazilərimizdə, Şuşada dalğalanması, günəşli diyarımızın əsrarəngiz gözəlliyini əks etdirməsi, gerbimizin şölə saçan simvolik naxışlarında, himnimizin əzəmətli və ahəngdar sədalarında xalqımızın istiqlaliyyəti, mübarizə və yaratmaq eşqi, qəlbimizin hərarəti ilə əbədiləşmişdir.

**Emin QASIMOV,**
**"Respublika".**

Respublika .- 2022.- 27 may.- S.11.